# Suverenlik və ərazi bütövlüyü həm də inkişaf üçün zəruri şərtlərdir

**Martın 3-də GUAM Parlament Assambleyasının (GUAM PA) videokonfrans formatında Büro və sessiya iclasları keçirilib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə GUAM PA-nın komitələrinin və Bürosunun iclasları keçirilib, gündəlikdə duran məsələlər müzakirə olunub, qurumun komitə iclaslarının yekunları, ötən sessiyasının yekun sənədinin layihəsi barədə və digər məsələlərə baxılıb, müvafiq qərarlar qəbul olunub.

Həmin gün GUAM Parlament Assambleyasının 17-ci sessiyası keçirilib. Sessiya çərçivəsində "GUAM üzvü olan dövlətlərin suverenliyinin və ərazi bütövlüyünün, iqtisadi və humanitar dayanıqlığının təmin edilməsi, ən ali məqsəd kimi" mövzusunda konfrans baş tutub.

Azərbaycanın sədrliyi ilə keçirilən onlayn tədbiri giriş sözü ilə açan Milli Məclisin Sədr müavini və GUAM PA-da nümayəndə heyətimizin rəhbəri Musa Qasımlı konfransın mövzusu barədə danışıb. Qeyd olunub ki, GUAM üzvü olan dövlətlərin suverenliyi, ərazi bütövlüyü, iqtisadi və humanitar dayanıqlılığı kimi mühüm məsələlərin müzakirəsi günümüzdə müasir çağırışlar fonunda çox aktualdır. Bildirilib ki, ölkələrimizin suverenliyi və ərazi bütövlüyü yalnız bizim müstəqilliyimizin təməli deyil, həm də sabit və dayanıqlı inkişaf üçün zəruri şərtlərdir. Hər bir dövlətin müstəqilliyi üçün bu əsas dəyərlərin qorunmasının vacibliyi xüsusi vurğulanıb.

Qeyd olunub ki, Azərbaycan üçün bu prinsiplər xüsusi əhəmiyyət kəsb edir. Təşkilata üzv ölkələr arasında siyasi, iqtisadi və humanitar sahələrdə dialoqu və əməkdaşlığı inkişaf etdirmək vacibdir. Bu, qarşılaşdığımız çağırışlara və təhdidlərə daha effektiv cavab vermək imkanı yaradacaq.

Musa Qasımlı qeyd edib ki, iqtisadi dayanıqlılıq dövlətlərin inkişafını təmin etmək üçün əsas amillərdən biridir. "Yaşıl dəhliz" kimi birgə layihələr, regiondakı iqtisadi əlaqələri daha da möhkəmləndirəcək və uzunmüddətli iqtisadi sabitliyi təmin edəcək.

Milli Məclisin Sədr müavini çıxışının sonunda xüsusi olaraq vurğulayıb ki, yalnız birgə səylərlə biz məqsədlərimizə çata bilərik. Suverenlik və ərazi bütövlüyü, iqtisadi və humanitar dayanıqlılıq yalnız sözlər deyil, bizim fəaliyyətimizi istiqamətləndirməli olan prinsiplərdir.

İclasda Gürcüstandan deputat Tornike Çeişvili, Moldovadan deputat Aleksandr Trubka və Ukraynadan deputat Svyatoslav Yuraş iştirak ediblər.

Tədbirdə GUAM PA-nın 17-ci sessiyasının yekun sənədi olaraq kommünike qəbul olunub.

*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 4 mart (№48).- S.3.